KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 1 (17) 2023

Nailə Müzəffər qızı Mehrəliyeva
*Bakı Dövlət Universiteti*
*İnformasiya və sənəd menecmenti fakültəsi*
*Redaksiya-nəşriyyat işi kafedrasının dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*

# XALQ ŞAİRİ CABİR NOVRUZUN ƏSƏRLƏRİNİN NƏŞR TARİXİ

***Xülasə:*** *Məqalədə müasir poeziyamızın dəyərli nümayəndələrindən biri olan Xalq şairi Cabir Novruzun poeziyasından və əsərlərinin nəşr tarixindən bəhs olunur. Sənətkarın qələmə aldığı əsərlərin nəşri vəziyyətinə burada xüsusi diqqət yetirilir.*

***Açar sözlər:*** *Xalq şairi, Cabir Novruz, poeziya, lirika, nəşr tarixi, şeirlər toplusu.*

Naila Muzaffar gizi Mehraliyeva

## Date of publication of the works of the national poet Jabir Novruz

***Abstract:*** *The article talks about the poetry of our great poet Jabir Novruz, who is one of the most valuable figures of our modern poetry, and the publication history of his works. The publication status of the works written by the folk poet has been highlighted.*

***Key words:*** *national poet, Jabir Nowruz, writer, publication, poetry, lyrics, history of publication, poetry collection.*

Наиля Музаффар кызы Мехралиева

## Дата публикации произведений народного поэта Джабира Новруза

***Резюме:*** *В статье рассказывается о поэзии нашего великого поэта Джабира Новруза, являющегося одной из ценнейших фигур нашей современной поэзии, и истории публикации его произведений. В частности, отмечен статус публикации произведений народного поэта.*

***Ключевые слова:*** *народный поэт, Джабир Новруз, публикация, поэзия, лирика, история публикации, сборник стихов.*

Cabir Novruz XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, mütəfəkkir şəxsiyyət, ictimai-siyasi xadim, poeziyanın orijinal ədəbi simalarındandır. Onun əsərlərində milli irsimizin zəngin ənənələri ilə müasir ədəbi cərəyanların tələbləri üzvi şəkildə birləşir. Ədəbiyyat aləminə gəldiyi ilk illərdən şair yüksək bəşəri-mənəvi dəyərləri tərənnüm edən şeirləri ilə oxucuların dərin məhəbbətini qazanmışdır.

Bədii sənət aləminə qədəm qoyduğu ilk günlərdən xalqın məhəbbətini qazanmaq hər şair və yazıçıya müyəssər olmur. Cabir Novruz özünün fitri istedadı ilə hələ gənc yaşlarından oxucuların sevməyə başladığı, həmişə diqqətlə izlədiyi və böyük ümid bəslədiyi sənətkarlardan biri idi.

Cabir Novruzun yüksək mənəviyyata səsləyən yaradıcılığı və vətəndaş ruhunun hakim olduğu poeziyası öz bədii gözəlliyi və dilinin rəvanlığı ilə səciyyələnir. Onun sözlərinə bəstələnmiş çoxsaylı mahnılar musiqisevərlər tərəfindən həmişə böyük rəğbət və sevinclə qarşılanmışdır. Şairin qələmindən çıxan lirik poeziya nümunələri və epik lövhəli əsərlər bədii səviyyəsi, mövzu rəngarəngliyi ilə seçilir.

Cabir Mirzəbəy oğlu Novruzov (Cabir Novruz) 1933-cü il martın 12-də Xızı rayonunun Upa kəndində anadan olmuşdur. O, orta məktəbi bitirdikdən sonra M.Ə.Sabir adına Bakı Pedaqoji Texnikumunda təhsil almış və 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsinə daxil olmuşdur. Bir il sonra Azərbaycan Yazıçılar İttifaqının tövsiyəsi ilə təhsilini davam etdirmək üçün Moskvaya, Maksim Qorki adına Ədəbiyyat İnstitutuna göndərilmiş və ildə oranı 1957-ci bitirmişdir [1].

1958-ci ildə "Bakı" axşam qəzetinin ədəbiyyat şöbəsində ədəbi işçi kimi əmək fəaliyyətinə başlayan Cabir Novruz 1967-1970-ci illərdə "Azərbaycan" ədəbi-bədii jurnalının, 1991-1993-cü illərdə isə "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktoru vəzifələrində çalışmışdır. O, 1970-1997-ci illərdə Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin katibi olmuşdur.

Cabir Novruz 1995-ci ildə Azərbaycan Milli Məclisinin deputatı seçilmişdir. Şairin ədəbi və ictimai fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, 1979-cu ildə "Azərbaycan SSR əməkdar incəsənət xadimi", 1999-cu ildə isə "Azərbaycan Respublikasının Xalq şairi" fəxri adlarına, eləcə də Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə, müxtəlif dövlət mükafatına, orden və medallara layiq görülmüşdür.

Xalq şairi Cabir Novruz 2002-ci il dekabrın 12-də ömrünün 69-cu ilində Bakı şəhərində vəfat etmişdir [1].

Cabir Novruzun poeziyaya özünəməxsus gəlişi özünü, hər şeydən əvvəl, həyat hadisələrinə münasibətdə göstərir. O, konkret həyati varlığın mənasını, daxili mahiyyətini açmağı varlığın zahiri gözəlliklərinə dair qanadlı ibarələr, hikmətli aforizmlər işlətməkdən üstün tutur.





Cabir Novruzun "İlk görüş" adlı ilk şeiri 1951-ci ildə "İnqilab və mədəniyyət" jurnalında işıq üzü görmüşdür. Şairin "Mənim muğamatım" adlı ilk şeir kitabı isə 1959-cu ildə "Gənclik" nəşriyyatında çapdan çıxmışdır.

Sonralar şairin şeirləri və poemaları "Ədəbiyyat", "Azərbaycan", "Ulduz", "Göyərçin" "Mədəni-maarif", "Savalan", "Mədəni həyat" kimi qəzet və jurnallarda dərc olunmuşdur.

Cabir Novruz 1960-cı illərdə "Azərnəşr" və "Gənclik" nəşriyyatlarında "İnsan məhəbbəti", "İllərin ömrü", "Bizim əsr", "Adi həqiqətlər" kitablarını çap etdirmişdir. "Bizim əsr" (1968) kitabına "İyirmi üç yaşım", "Şair dostlarıma", "Neft Daşları", "Mənim Bakım", "Bala yurdu", "Cəfərlə görüş" adlı poemaları daxil edilmişdir. Kitabdakı şeirlər istər sənətkarlıq, istərsə də ideya-məzmun cəhətdən xeyli fərqli idi. Bu əsərlərdə vətənə məhəbbət, təbiət gözəlliyi və yaradıcı adamların fədakarlığı tərənnüm edilir.

Sonralar nəşr olunmuş "Mənim muğamatım", "Şeirlər və poema", "Həyat sən nə qəribəsən" və s. kitablarına daxil olan şeir və poemalarında şair müasirlərinin zəngin və mənəvi aləmini tərənnüm etmişdir.

Oxucu şairin "Unudulmuş kənd", "O kim idi", "Batan buruğun xatirəsinə", "Mən həmişə qazanıram", "Yaxşılıq", "Şeirlərimə resenziya", "Ömürlə söhbət", "Baba yurdu", "Görüş", "Bir dünyam var", "Mənim nəslim", "Günəş tutulan günü düşüncələr", "Nə yaxşı ki, bu qar yağdı", "Ana", "Cavanlığım", "Qətran kimi saçlar", "Ana muzeyləri yaradaq gəlin" və başqa uğurlu şeirlərində, eləcə də "Qərbi Berlin", "İnsan himnləri", "Kəndimizin antik heykəlləri", "Zaman", "İtmiş kəndin nağılları" və digər poemalarında söz işığı və sənət qələbəsi ilə qarşılaşır.

Cabir Novruzun "Bir dünyam var" adlı kitabında toplanmış əsərlərin əsas hissəsini müəllifin 1970-ci ildə xüsusi mükafata layiq görülmüş "Adi həqiqətlər" kitabına daxil olan silsilə şeirlər təşkil edir. Kitabda eyni zamanada şairin yeni lirik şeirləri, uşaqlar üçün yazdığı əsərləri və bir sıra mahnıları da daxil edilmişdir.

"Azərnəşr" 1970-ci ildə şairin "Həyat sən nə qəribəsən" kitabını yüksək poliqrafik tərtibatda çapdan buraxmışdır. Kitaba "Unudulmuş kənd", "Bir alim tanıyıram", "Puşkinin qəbri üstə", "Duman" və s. şeirləri daxil edilmişdir.

Şairin zəngin və ədalətli yaradıcılığında müxtəlif illərdə qələmə aldığı poemaları da mühüm yer tutur. "İnsan himnləri", "Davanın min sifəti", "Songüllərin özü üçün saxlar igidlər, "Elgiya", "İtmiş kəndin nağılları", "Qərbi Berlin", "Azərbaycan" "Bir dünyam var", "İnsan məhəbbəti", "Cəfərlə görüş", "Kəndimizin antik heykəlləri", "Zaman", "Əli Kəriminin xatirəsi" və s. lirik, lirik-epik əsərlər kimi diqqət çəkir.

"Gənclik" nəşriyyatı bu dövrdə Cabir Novruzun daha iki kitabını çapdan buraxmışdır. "Taleyin lövhələri" (1972) və "Bir dünyam var" (1974) adlı kitablarında onun "Bir zamanlar mən o qızı sevərdim", "Deyirsən ki, sevirəm",

"Dünyanı bir ana doğub elə bil", "Bahar duyğuları", "Mən göz açdım adın ilə" və başqa əsərləri yer almışdır.

"Yazıçı" nəşriyyatı isə 1978-ci ildə görkəmli şairin "İnsan himnləri" adlı kitabını çapdan buraxır. Kitaba, müəllifin "Maral Göl", "Dənizdə insanlar gözəl görünür", "Şairi öldürdülər", "İki ayağından asılmalıdır", "Vətəni qürbətə dəyişdirənlər", "Qüdrət şeirləri" ilə bərabər 5 poeması da daxil edilmişdir. Bu poemaların poetik səviyyələri eyni deyildir. Lakin, "İnsan himnləri" və "Qərbi Berlin" poemaları Cabir Novruz şeirlərinin poetik tutumunu, coşqun ilhamını nümayiş etdirir. Həmin kitaba Asif Əfəndiyev "Müqəddəsliyin vəsfi" adlı səmimi və geniş müqəddimə yazmışdır.

"Gənclik" nəşriyyatı 1980-ci ildə şairin "Nə qədər ki, sağam" adlı kitabını nəfis tərtibatda çapdan buraxmışdır. "Heç vaxt ürəksiz, ilhamsız yazdığım olmayıb" deyən şair kitabına ön sözü özü yazmışdır. "Nə qədər ki, sağam", "İnsan vətənində böyükdür ancaq", "Gecikmiş məhəbbət nəğmələri", "Babalar, nənələr, nəvələr" kitabına poemaları və bir sıra silsilə şeirləri daxil edilmişdir. Kitabın redaktoru Musa Ələkbərli, rəssamı N.Babayevdir.

1980-1982-ci illərdə "Gənclik" nəşriyyatında şairin "Seçilmiş əsərləri", "Nə qədər ki, sağam" şeirlər kitabı işıq üzü görür.

1983-cü ildə isə "Yazıçı" nəşriyyatı Cabir Novruzun 2 cildlik "Seçilmiş əsərləri"ni çap edir. Yüksək poliqrafik tərtibatda, qalın cilddə buraxılan bu kitaba onun "Gözüm görə-görə qocalır anam", "Ana muzeyi yaradaq gəlin", "İstəyirəm milyonlara gərək olum", "Sözü satıram alan yox", "Nə qədər canım var", "Mən də xalqın şairiyəm", "Biz səni dağ bilirdik", "Ay ana", "Onda külçə idim", "Mənim ürəyim", "Mənimçün ən əziz, ən şirin, ən uca günlər", "Bəlkə sən deyəsən", "Ana, qurban olum dualarına", "Yarı yolda qoyma məni", "Bəs mən hara gedim, balam", "Deyə bilmirəm", "Cavanlığım", "Yandırdı məni", "Bu gün də salamat açdım səhəri" şeirləri, "İnsan himnləri" və "Azərbaycan" poemaları daxil edilmişdir.

1985-ci il "Yazıçı" nəşriyyatı Cabir Novruzun "Ömür keçir karvan kimi" kitabını nəşr edir. Kitabın redaktoru Məmmədkazım Ələkbərlidir. Kitabda şairin "Bir zamanlar mən o qızı sevərdim", "Deyirsən ki, sevirəm", "Səni gördüm", "Mənim xatirələr pedməktəbim var", "Dəyişər birbəbir aylar, fəsillər", "Nə qədər ki, sağam" şeirləri toplanmışdır.

"Yazıçı" nəşriyyatı 1987-ci ildə Cabir Novruzun "Ulu dünya, heyifsən", 1989-cu ildə isə "Anam vardı, dünyam vardı" şeirlər kitabını nəfis tərtibatda çapdan buraxır.

1992-ci ildə "Yazıçı" nəşriyyatı şairin 208 səhifəlik "Vətən əbədi qoruqdur" adlı, 1996-cı ildə isə "Şirvannəşr" 256 səhifəlik "Özünü qoru, xalqım" adlı şeirlər və poemalar kitabını oxuculara təqdim etmişdir.

Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncam ölkədə ədəbiyyatın, nəşriyyatın, mütaliənin, mədəniyyətin inkişafına





böyük təkan verdi. Latın qrafikası ilə çapı nəzərdə tutulan kitabların siyahısına Xalq şairi Cabir Novruzun əsərləri də daxil edilmişdir. Sənətkarın "Seçilmiş əsərləri"ni "Lider" nəşriyyatı 2004-cü ildə yüksək poliqrafik tərtibatda çapdan buraxmışdır. 1983-cü ildə "Yazıçı" nəşriyyatı tərəfindən çap olunmuş ikicildlik əsasında təkrar nəşrə hazırlanan, 288 səhifə həcmində olan bu kitaba şairin 145 şeiri və 2 poeması daxil edilmişdir. Ön sözün müəllifi Müşfiq Cabiroğludur.

2000-ci illərdə C.Novruzun "İnsanı tanımaq olmur", "Özünü qoru, xalqım", "İtmiş əlyazmalar" kitabları çapdan çıxmışdır. 2005-ci ildə "Çaşıoğlu" nəşriyyatı tərəfindən buraxılmış kitaba şairin 1954-1957-ci illərdə qələmə aldığı və oxuculara məlum olmayan nəzm və nəsr nümunələri daxil edilmişdir. Kitabın tərtibçiləri Varis və Müşfiq Cabiroğlu, ön sözün müəllifi Ofeliya Babayevadır.

Filologiya elmləri doktoru Əlizadə Əsgərli "Səmimiyyət və ünsiyyət şairi" adlı məqaləsində sənətkarın yaradıcılığından bəhs edərək yazır: "C.Novruzun yaradıcılığında ana-övlad mövzusu mühüm yer tutur. Onun "Mən bizim anaları günəşlə tən tuturam", "Anam Qızılgülə", "O kiçik kəndinə sığışan anam", "Gözüm görə-görə qocalır anam", "Ana muzeyləri yaradaq gəlin", "Ən əziz, ən şirin, ən acı günlər", "Qətran kimi qara saçlar ağarıb tamam", "Həmidə xalanın xatirəsinə", "Bilmirəm", "Bir ana qucağında bir körpə aparırdı", "Mənim ölməz şeirlərim", "İnana bilmirəm", "Mənim nəyim çatışmır", "Anam, can vermə, can vermə" (1987), "Bundan belə" (1987), "Onun təki" (1987), "Qara gözlüm" (1986) kimi şeirlərində şairin ana-övlad məhəbbətinin bədii ifadəsi təsirlidir. "Mən bizim anaları günəşlə tən tuturam" şeirində şair əyilməz analara sevgi dolu mahnılar oxumaq istəyib" [1].

Cabir Novruzun əsərləri dünyanın müxtəlif xalqlarının dillərinə tərcümə edilərək nəşr olunmuşdur. Onun bədii tərcümələri sayəsində isə Azərbaycan oxucusu dünya poeziyasının bir sıra dəyərli nümayəndələrinin, o cümlədən A.Blok, S.Marşak, A.Tvardovski, R.Həmzətov, Y.Bukov, Y.Yevtuşenko, R.Rojdestvenski, Y.İsayev, O.Süleymanov və başqalarının əsərləri ilə tanış olmaq imkanı qazanmışdır. Onun Y.Bukovdan ("Səməd"), Y.İsayevdən ("Yaddaşın məhkəməsi", "Yaddaşın üfüqləri" (1984), S.Marşakdan ("Yekə cib", 1964), B.Oleynikdən ("Torpaq üstə dayanmışam", 1980), R.Rojdestvenskidən ("Sizin üçün yaşayıram", "Mənim şair dostum"), O.Süleymenovdan ("Şəhriyarın nəfəsi") tərcümələri maraqla qarşılanmışdır.

Zəngin yaradıcılıq yolu keçmiş Cabir Novruzun "İnana bilmirəm", "Mənim nəslim", "Sağlığında qiymət verin insanlara", "Mənim ölməz şeirlərim" kimi əsərləri dillərdə əzbərə çevrilmişdir. Məsələn:

***Bir arzum var, ay adamlar, qoyun deyim,***
***Sağlığında qiymət verin insanlara,***
***Yaxşılara sağlığında yaxşı deyin,***
***Sağlığında yaman deyin yamanlara.***

*Yalnız, yalnız sağ olanda,*
*Hər kəs əsl qiymətini bilər onda,*
*Bu sözlərim düz olmasa töhmət edin.*
*Sizdən rica eləyirəm milyon kərə,*
*Şairlərə sağlığında hörmət edin,*
*Sağlığında heykəl qoyun ölməzlərə...*

Tənqidçi Vaqif Yusiflinin dediyi kimi, "Cabir Novruz poeziyasında həyatın gözəlliklərinə, təbiiliyə, müqəddəsliyə himnlər oxunduğu kimi, antihumanizmə, şərə, mənfiliyə, eybəcərliyə güclü nifrət duyğusu yaşayır. "Ana muzeyləri yaradaq gəlin" deyən şair digər şeirində ana hissini təhqir edənlərə qəzəbini, nifrətini elan edir. Vətən deyən, millət deyən, baş aldadan, göz külləden, hər mühiti, hər iqlimi qəbul edən, bir formada, bir ölçüdə ömür sürən nadanlar, ev yıxmağa tələsənlər, mənliyini satıb mənsəb alanlar, zülməti işıqla pərdələyənlər C.Novruz şeirinin güllə hədəfləridir.

...Ömrünün son illərində C.Novruz poeziyasında bu hədəflərin obyekti daha konkretdir. Vaxtilə böyük bir vəcdlə insan gözəlliyini, təbiət gözəlliyini vəsf edən C.Novruz indi bu gözəlliyə qənim kəsilənləri ifşa hədəfinə çevirir. Azərbaycanın bu son 10-12 ildə aldığı yaralar şair ürəyində də öz əks-sədasını tapıb. Şuşaya həsr etdiyi poemada, yaxud 15 il öncə işıq üzü görən "Azərbaycan" poemasında tariximiz-bu günümüz bütün təzadlarıyla əks olunur. Hətta C.Novruz poeziyasında keçid dövrünün ikrah doğuran olaylarına qarşı satirik münasibəti əks etdirən şeirlər də diqqəti cəlb edir.

Bir sözlə, 1960-1990-cı illərin Cabir Novruzu ilə XXI əsrin Cabir Novruzu bir-birini tamamlayır" [5].

## ƏDƏBİYYAT

*1. Əsgərli, Əlizadə. Səmimiyyət və ünsiyyət şairi (Cabir Novruz – 85) // Azərbaycan. – 2018. – 13 mart. – S.6.*

*2. Novruz, Cabir. Vətən əbədi qoruqdur: Şerlər və poemalar. – Bakı: Yazıçı, 1992. – 208 s.*

*3. Novruz, Cabir. Özünü qoru, xalqım: Şerlər və poemalar. – Bakı: Azərbaycan, 2002. – 352 s.*

*4. Sənət köhlənindən enməyən şair - Cabir Novruz [Mətn]: 85 illik yubileyi münasibətilə hazırlanmış metodik vəsait / tərt.: A.Əliyeva, Ş.Əliyeva; red. K.Ağazadə; ixtisas red. və buraxıl. məsul Ş.Qəmbərova. – Bakı: F.Köçərli ad. Resp. Uşaq Kitabxanası, 2018. – 28 s.*

*5. Yusifli, Vaqif. Unudulmayan Cabir Novruz // Ədəbiyyat qəzeti. - 2013. - 8 mart. - S.3.*

*6. Cabir Novruz / https://az.wikipedia.org/wiki/Cabir_Novruz*